# Şəkinin yeni beynəlxalq statusu şəhərə turist axını açacaq...

**İyulun 7-də UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında hər bir azərbaycanlını sevindirəcək hadisə baş verdi. Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına salındı. Bu çox əhəmiyyətli və tarixi bir hadisədir.**



### *Nahid Bağırov: "Məlum qərar sayəsində Şəki dünyada tanınacaq"*

### *Ruslan Quliyev: "Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarından sonra turistlərin həmin bölgəyə diqqəti daha da artacaq"*

Şəkinin Ümumdünya İrs Siyahısına daxil edilməsi tək ölkənin, onun mədəniyyətinin tanıdılması baxımından əhəmiyyətli deyil, eyni zamanda, iqtisadiyyatın, turizmin inkişafına müsbət təsir göstərən amillərdən biri olacaq.

Şəkinin Ümumdünya İrs Siyahısına salınması ilə bütün dünya ölkələri Azərbaycanın tarixi şəhəri olan Şəki haqqında məlumatlı olacaqlar. Beləliklə, səyahətsevərlər tarixi məkanı görmək üçün Şəkiyə üz tutacaqlar. Bununla da Azərbaycan turizminin inkişafında Şəkinin əvəzsiz rolu olacaq.

**Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu hadisə ölkənin mədəni həyatında təqdirəlayiq hal olmaqla bərabər, turizm sektorunun inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir:** "Turizm şirkətləri tərəfindən həyata keçirilən bir sıra turlar çərçivəsində regionlarımızda yerləşən və UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən mədəni-tarixi məkanlara səyahətlər təşkil edilir. Həmin səyahətlərə xarici turistlər çox böyük maraq göstərirlər. Bir çox Avropa ölkələrində məhz UNESCO-nun Dünya İrs Siyahısına daxil olan məkanlara səyahət marşrutu üzrə gəlmək istəyən xeyli sayda insan var. Bu baxımdan, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı", "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESCO-nun Dünya İrs Siyahısında, eyni zamanda, xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısında yer alması Azərbaycana gələn turistlərin sayının artmasına əhəmiyyətli təsir göstərəcək, turizmin inkişafına böyük töhfələr verəcək".

Həmsöhbətimiz onu da vurğuladı ki, Şəki özünün tarixi-mədəni irsi və turistik əhəmiyyəti baxımından həmişə diqqət mərkəzində olub: "Zənnimcə, Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarından sonra turistlərin həmin bölgəyə diqqəti daha da artacaq".

R.Quliyev hesab edir ki, Şəkidə bölgənin tarixini əks etdirəcək əlavə işlərin görülməsinə ehtiyac var. Məsələn, həmin əraziyə 3D virtual səyahət formatında layihələr nəzərdə tutula bilər.

**Azərbaycan Turizm Assosiasiyasının (AzTA) rəhbəri Nahid Bağırov bildirdi ki, Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarı adıçəkilən şəhərin bütün dünyada tanınmasına səbəb olacaq:** "Bu hadisə ölkəmizin tanıdılması, eyni zamanda, mədəniyyət və turizm sahəsi üçün əhəmiyyətlidir. Ümumiyyətlə, Şəki hər zaman turistlər üçün maraqlı məkan olub. Məlum qərar sayəsində Şəki dünyada tanınacaq. Xarici vətəndaşlar bu abidədən xəbərdar olacaq və onların Azərbaycana marağı artacaq. Fikrimcə, Dövlət Turizm Agentliyi Şəki Xan Sarayı ilə bağlı müəyyən addımlar atacaq".

Həmsöhbətimiz qeyd etdi ki, bu qərardan sonra nəinki Şəkiyə, ümumiyyətlə, ölkəmizə gələcək turistlərin sayı birəbeş artacaq: "Tarixi mədəniyyət abidələri turizmin inkişafına təsir göstərən, eyni zamanda, ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm amillərdəndir. Nəzərə almaq lazımdır ki, istənilən ölkəyə səyahət edən turist həmin ölkənin tarixinə, yaşayış tərzini əks etdirən maddi mədəniyyət nümunələrinə maraq göstərir. Öz növbəsində, hər bir ölkə qədimliyini dünyaya təqdim etmək üçün mədəni irs nümunələrindən faydalanmış olur. Turizm də ölkənin mədəni irsinin dünyaya tanıdılmasında bir vasitədir. Şəki Xan Sarayının UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması turistlərin Azərbaycana diqqətini cəlb edəcək və onlar abidələrimiz, tariximiz barədə məlumat əldə edəcəklər.

Azərbaycana gələn turistlər daha da çox qalacaqlar. Çünki UNESCO mədəni irsinə daxil olan abidələrə səfər etmək üçün əvvəl bir gün bəs edirdi, amma turistlərin Şəkiyə getməsi üçün üç-dörd saat vaxt lazımdır. Artıq turizm şirkətləri, istər-istəməz, Şəki turunu öz proqramlarına daxil edəcəklər və orada UNESCO irsinə daxil olan Şəki Xan Sarayı yazılacaq və turist bu proqramı görən zaman oranı görmək istəyəcək".

***Günel CƏLİLOVA***